# KİTABİ-DƏDƏ QORQUD ABİDƏSİNDƏ OĞUZ ELLƏRİNİN ADƏT-ƏNƏNƏLƏRİ VƏ ONLARIN AİLƏ VƏ İCTİMAİ HƏYATDA YERİ VƏ ROLU



*Yusif QAZIYEV,*
*Əməkdar müəllim*

*(Əvvəli ötən saylarımızda)*

Yeri gəlmişkən, oğuzların xələfini də bu müxtəlif üsullarla davam etdirirlər. Burada da iki maraq vardır: varlı yerdən qız almaq, vəzifə tutmaq, varlı yerə qız vermək, vəzifə tutmaq və maddi maraqlarını yerinə yetirmək.

Təsadüfi deyildir ki, Azərbaycanda Sovet dövründə vəzifə tutmaq, maddi maraqlarını təmin etmək, şöhrətpərəstliyə nail olmaq üçün Moskvanın «beynəlmiləl» genosid siyasətinə uyğun olaraq gənclərimiz başqa millətlərdən qız alırdılar, vəzifə tuturdular, nəticədə həm özləri, həm də övladları qeyd edilən siyasətin qurbanı olurdular, əsil-nəcavətini itirirdilər. Sovet dövrünün 70 ili müddətində Azərbaycanın 1 nömrəli vəzifəsində Nəriman Nərimanov və Heydər Əliyevdən başqa rəhbərlər «beynəlmiləlçi» ailədən olmuşdur. bunun da xoşagəlməz nəticələri olmuşdur. Belə ki, vəzifə naminə başqa millətin qızını alanlar raykom katibi, icra hakimiyyətinin başçısı, nazirlər və s. vəzifələri tutmuşlar, özləri üçün yaxşı şərait düzəltmişlər. Xalq kütləsindən ayrı düşərək kommunizm aristokratiyası formalaşmışdır. Nəticədə milli qürür, torpaq, millətçilik keyfiyyətləri unudulmuşdur.

6. Oğuz İttifaqında adət-ənənələrdən alqışlar, qarğışlar, bayatılar, varislik və vərəsəlik hüquqları mühüm əhəmiyyət kəsb edirdi. Bütün boylarda alqışları ozanlar aparır ki, onların başçıları da Dədəm-Qorquddur. Bununla yanaşı ayrı-ayrı şəxslər tərəfindən də alqışlar və qarğışlar da dastanda mövcuddur.

Məsələn, Beyrəyin muştuluğunu atasına-anasına aparan qız deyir:

«Arğab-arğab qara tağın yıxılmışdı, yucaldı, axır!
Qanlu-qanlu suların sovğulmışdı, çağladı, axır!
Qaba ağacın qurımışdı, yaşardı, axır!
Şahbaz atın qarımışdı, qulun verdi, axır!
Qızıl, dəvələrin qarımışdı, köşək verdi, axır!
Ağ (ayılda) qoyunın, qarımışdı, quzı verdi, axır!
On altı yıllıq həsrətin – oğlun Beyrək gəldi, axır!
Qayınata-qayınana, muştuluq mana nə verərsiz? – dedi» (D – 117).

Həmçinin, Dədəm Qorqud deyir: «Bu Oğuznamə Beyrəgin olsun!» - dedi. Yum verəiyn, xanım:

Qara tağların yıqılmasun!
Gölgəlicə qaba ağacın kəsilməsün!
Ağ saqallu baban yeri uçmaq olsun!
Ağ birçəkli anan yeri behişt olsun!
Oğulla qarındaşdan ayırmasun!
Axır vəqtində arı imandan ayırmasun!
«Amin! Amin!» deyənlər didar görsün!
Yığışdırsun, durışdırsun günahınızı
Adı körklu Məhəmməd Mustafa yuzi suyuna
bağışlasun, xanım hey!..» (kts – 67, D – 122).

VIII boyda oxuyuruq:

Aruzun oğlu Qıyan Səlciki öldürən Təpəgözlə vuruşmaq istəyən Aruzun ikinci oğlu Basat qardaşı Qıyan Selcik haqqında bəyatı deyir:

Qıran yerdə tikilmiş otaxların,
O zalım yıqdırdı ola, qardaş!
Yügrək olan atların tavlasından
O zalım seçdirdi ola, qardaş!
Bisərək-bisərək dəvələrin qatarından
O zalım ayırdı ola, qardaş!
Şülələndə qırduğun qoyunun
O zalım qırdı ola, qardaş!
Güvəncinlə gətürdigin qəluncügin
O zalım səndən ayırdı ola, qardaş!
Ağ saqallu babamı
«Oğul» deyü ağlatdın, ola qardaş!
Ağca yüzlu anamı
sızlatdın, ola qardaş!
Aqındalı görklü suyımın taşqunı qardaş!
Güclı belim qüvvəti,
Qaraunu gözlərümin aydını, qardaş!».

Oğuz İttifaqında ailə-məişət məsələlərilə əlaqədar olaraq varislik və vərəsəlik problemləri də mövcud olmuşdur. Dastanda hər nəsil və tayfa başçısı öz yerini müəyyən şərtlər daxilinəd oğluna verməkdə sərbəstdir. VI boyda – «Qanlı qoca oğlı Qanturalı boynı bəyan edər, xanım hey-hey», Qanlı Qoca deyir «Yoranlar, atam öldı, mən qaldım. Yerin-yurdun tutdum. Yarınkı gün mən öləm, oğlum qala. Bundan yegrəgi yoxdur ki, gözüm görərkən, oğul gəl səni evərəyim!» - dedi (D – 170).

Amma Qazan bəylərbəyliyinin öz yerini bu cür sərbəstliklə oğluna verməyə ixtiyarı çatmır. Onun yerini tutmaq üçün oğlun ləyaqətlərini və hünərlərini Oğuz elləri görməlidir, qocalar onu «təhsinləməlidirlər» (Qara Budağı təhsinləyən kimi). Qazan bəy oğlu Uruza deyir: «Qanlu Oğuz içində cöldi (fəxri ad – Y.Q.) almadın. Yarınkı gün zaman dönüb, bən ölib, sən qalacaq tacım-taxtım sana vermiyələr, - deyü sonımı andım, ağladım, oğul! – dedi» (D – 125).

Bu Oğuz elinin çox qəti qanun-qaydası idi. Aydın olur ki, rəhbər vəzifələri tutmaq və varisliyə sahib olmaq nöbəsi varisə gəlib çatsa da, özünü igidliklə tanıda bilməyən varisi atanın tutduğu yüksək vəzifəyə qoymaq bir nəfərin, məsələn, Bayındır xanın hüququndan kənardır. Ancaq aydındır ki, qəbilə başçıları, hərbi zadəgan qocaları belə səlahiyyət sahibi ola bilərdilər.

Beləliklə, dastandan aydın olur ki, hakimlik-tabelik münasibətlərindən daha çox, ya rütbə varisliyi, ya da vərəsə varisliyi hüquq norması sayılır.

7.Oğuz İttifaqında həyata keçirilən adət-ənənələrindən biri də yas, and və muştuluq mərasimlərinin keçirilməsi idi.

Məişət məsələləri sırasında yas ölümlə bağlıdır. İlkin təfəkkür çağında insan ölümü həyatın bitməsi, sona yetməsi faktı saymamışlar. Ölənin tərəfindən diriləcəyinə, öz soyunu, el-obasını, yurd-yuvasını yad eydəcəyinə inanmışlar. KDQ-nın «Duxa qocı oğlı Dəri Domrul boyı»nda deyilir ki, Dəli Domrul körpünün yanına düşən obanın yaxşı, xub igidi öldüyünü görür. Əzraylın can aldığın bildikdə: «Mərə Əzrayıl dedügüniz nə kişidr, kim adamın canını alır?» Ya Qadir Allah, birligin, varlığın haqqıyçün, Əzrayılı mənim gözümə göstərgil, savaşayim, çəkişəyim, dürişəyim, yaxşı yigidin canın qurtarayım. Bir dəxi yaxşı igidin canın almaya», - dedi» (D – 156).

Yas mərasiminin ilki şivən ayinidir. Şivən, əsasən, ölüm hadisəsi baş verdiyi vaxtda olur. Ölən saatdan təsirli, yanıqlı sözlərlə, oxşamalarla hönkür-hönkür ağlamaq, üz cırmaq, saç yolmaq şivənin əsas əlamətlərindəndir. Şivənin ən səciyyəvi örnəyinə biz «Qam Börənin oğlı Bamsı Beyrək boyı»nda tuş oluruq. Beyrəyin ölüm sorağını eşidən «Banıçiçək qaralar geydi, ağ qaftanını çıqardı. Güz alması kibi al yanağını yırtdı (D – 94). Beyrəyin bacıları isə öz qardaşları üçün belə şivən qoparırlar: «Vay bəgim qardaş! Muradına – məqsudina irməyən yalnız qardaş!» (D – 92). Şivəndə oxşama, nazlama, layla, ağı və bir sıra xalq şeiri örnəklərindən izlər, əlamətlər olur. KDQ-də ana şivənin məxsusi cizgiləri vardır. Əgər abidənin «Qazan bəg oğli Uruz bəyin tutsaq olduğu boyı»nda Boyi uzun Burla xatun oğlu Uruz üçün:

«Oğul, oğlu, ay oğlu» Ortacım oğul!
Qarşu yatan qara dağım yüksəgi oğul!
Qaran nulica gözlərim aydını oğul!..»
(D – 136, 137).

Bu şəklində Şivən qoparırsa, «Qam Börənin oğlı Bamsı Beyrək boyı»nda Bamsı Beyrəyin ağbirçəkli anası şivən deyə-deyə bıldır-bıldır ağlayır, göz yaşı tökür, acı dırnaqla al yanağını yırtır, qarğı kimi qara saçını yolur.

Yas mərasimində ölən üçün ağı deyib ağlamaq da adətdir. Poetik baxımdan şivən örnəklərinə yaxın olan ağıların səciyyəsi ölənin yaratdığı mənəvi boşluğu təsvir və təqdim etməkdir.

KDQ-də də şivənlə yanaşı, ölənə tutlan yasda ağılar deyilir. Bəlli olduğu üzr, abədinin «Basat Dəpəgözü öldürdigi boyı»nda Dəpəgöz əlində şəhid olanlardan biri də Aruz oğlu Basatın qardaşı Qıyan Səlcükdür.

Uzun müddət uzaq səfərdə olan Basat qayıtdığı zaman qardaşının ölümünü biləndə «qaranqu» gözləri yaşla dolur və belə bir ağı deyir:

«Ağ saqallu babamı
«Oğul» deyü ağlatdın ola, qardaş!
Ağca yüzlü anamı sızlatdın ola, qardaş!
Qarşu yatan qara tağım yüksəgi, qardaş!
Güclü belim qüvvəti, qaraunu,
Gözlərümün aydını qardaş!» (D – 223).

Yas mərasimində ölənə ehtiram, onu yad etmə məqamlarından biri də ehsan verməkdir. KDQ-də də ehsan mərasiminin təsviri var.

Yas mərasimində ölənin qohumlarından kişilər saçsaqqal saxlamaqla, qadınlar isə qara rəngli pal-paltar geyinməklə özlərini yasa gələnlərə tanıdırlar. Oğuzda ölənin yaxın adamları özlərini tanıtmaq üçün, əsasən, ağ çıxarıb qara geyir, göy sarınırlar. Bunu biz Beyrəklə bağlı boylarda aydın şəkildə geyib görürük. Hər iki boyda qohum-əqrəba, tanış-biliş qara paltar geyib Beyrəyə «ərim yas» saxlayır. Bu, aludənin «İç Oğuza Daş Oğuz asi olub Beyrək öldügi boy»unda belə təsvir olunub: «Beyrəgin babasına, anasına xəbər oldi. Ağ evieşiyində şivən qopdi. Qaza bənzər qızı-gəlini ağ çıqardı, qara geydi. Ağ-boz atının quyruğunu kəsdilər. Qırqəlli yigit qara geyib, gög sarındılar» (D – 239).

Yas mərasimi ilə bağlı bir cəhət də ölümqabağı vəsiyyətdir. Vəsiyyət ölən kimsənin, bir növ öz nigarançılığından qurtarması, istək və arzularını qalanlara bildirməsi faktdır.

KDQ-də üç dəfə vəsiyyətlə üzləşirik. Bunlardan biri Uruzun atasına söylədiyi vəsiyyətdir.

«Yad qızı halalıma dəstür versün!
Buna tutan gərdəyə ayrıq girsün!
Anam mənim için gög geyüb, qara sarınsın!
Qalın Oğuz elində yasımı tutsun!» (D – 144).

İkinci vəziyyət Dəli Domrulundur («Duxa qoca oğlı Dəli Domrul boyı»). Əzrayılın əlindən yaxa qurtara bilməyəcəyini yəqin edən Dəli Domrul aman istəyir ki, vəsiyyətini halalına – arvadına söyləyə bilsin. Buna razılıq alan alp arvadına vəsiyyətini belə söyləyir:

«İmdi yüksək-yüksək – qara dağlarım sana yaylaq olsun!
Sovuq-sovuq sularım sana icət olsun» (D – 166).

Beyrəyin vəsiyyəti konkret məişət fonundan çıxıb daha çox ictimai məzmun kəsb edir.

«Elim-günüm çopmadın,
Qazan mana yetişsün,
Mənim qanum Aruza qomasın.
Ağca yüzlü göklümi oğlına alı versün!
Axirət haqqını həlal etsün.
Böyrək padşahlar padşahı həqqə vasil oldı,
Bəllü bilsün!» (D – 299).

Bundan savayı, Beyrək bunu da vəsiyyət eləyir ki, «Yarın qiyamət günində mənim əlüm Qazan xanın yaqasında olsun, mənim qanım Aruza qoarsa!» .

Dastanda şəhidlərin yası, dəfn mərasimi təsvir edilmir. Çünki qəhrəmanlıq pafosu yas mərasimini kölgədə qoyur. Mətndən biz onu bilirik ki, yas əlaməti olaraq ağ (paltar) çıxarıb «qara geyinir və göy bağlayırlar», qadınlar al yanaqlarını didirdilər, ağlaşırdılar, «ap-alaca orduya şivən girir». Beyrəyin ailəsi yaylağa köçmür, onun yurduna ozan gəlmir, qopuz çalınmır. Ölüm ayağında olan igid vəsiyyət edir ki, onun atını boğazlayıb aşını versinlər, dul arvadını bəylərdən biri oğluna alsın, Oğuzlarda belə bir adət vardır ki, öz igid nişanlı olanda icazə verilir ki, nişanlısı bir ayrısının gərdəyinə girsin. Məsələn, Uruz dustaqlıqdan anasına sifariş göndərir:

«Ayğır atım boğazlayıb, aşum versün!
Yad qızı həlalıma dəstur versün!
Mana tutan gərdəgə ayrıq girsün!
Anam mənim içün gög geyüb, qara sarınsun!
Qalın Oğuz elində yasım tutsun!» (D – 144).

Oğuz bəyləri sevinəndə çalmalarını göyə atıb tutarlarmış, əziz və məşhur igid itirəndə, sevgilisini itirmək təhlükəsi görəndə onlar öz çalmalarını yerə vurarlarmış; bu intiqam aylınmayınca papağın tapdalanması əlamətidir.

Əski inam və etiqadların məhsulu olan andlar daha çox insanların təsəvvür, düşüncə, dünyagörüşü ilə bağlıdır. Andlar, əsasən iki yolla yaranıb: 1). İnsanların sakral saydıqları varlıqlara and içmək yolu ilə; 2). Müəyyən bir iş, əhvalatla bağlı söylənilmiş fikrə, sözə şübhə ilə yanaşıldıqda müsahibini inandırmaq üçün Oğuzlarda and müqəddəs məvhum sayılırdı.

*(Davamı var)*